QARABAĞ AZƏRBAYCANDIR!

## Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlar heç vaxt unudulmur!




4




2



Səs
№ 176 (6617) 28 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik

## "44 günlük Vətən müharibəsi şanlı tariximizdir!"

# Nüvə siqnalları



ABŞ və Rusiyadan "qırmızı xətt" xəbərdarlığı

12

## Levon Ter-Petrosyan hakimiyyətə və müxalifətə son xəbərdarlığını etdi



13

## "Jurnalistlərin media reyestrinə daxil olması yaxşı bir göstəricidir"



6

## Əgər ər və arvadın övladı yoxdursa, miras kimə qalır?



16




7

## Rusiyada fərarilik dalğası: səfərbərliyə qarşı etirazlar artır

## Laçın istiqamətində Ermənistana məxsus PUA ələ keçirilib



## 1990-lar, 2020-lər...



12

# "44 günlük Vətən müharibəsi şanlı tariximizdir!"

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər




"Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın"

**Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar. Azərbaycan Prezidenti burada çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, 44 günlük Vətən müharibəsi şanlı tariximizdir:**

"Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.



"Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq"

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır. Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır."

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12.00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.





# Birinci vitse-prezident Mehriban Əliyeva Anım Günü ilə əlaqədar Füzuli rayonundan paylaşım edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 27 Sentyabr - Anım Günü ilə əlaqədar Füzuli rayonundan paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Anım Günü. Füzuli rayonu. 27.09.2022".



# Emmanuel Makron Prezident İlham Əliyevə zəng edib

**Sentyabrın 27-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Fransa Prezidenti sentyabrın 26-da Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi görüş haqqında dövlətimizin başçısına məlumat verib.**

Prezident İlham Əliyev məlumata görə təşəkkürünü bildirib. Söhbət zamanı Azərbaycan-Ermənistan sərhədində baş vermiş toqquşmalar haqqında müzakirə aparılıb. Prezidentlər Azərbaycan ilə Ermənistan arasında sülh danışıqlarının tezliklə başlanması barədə danışıblar.

# Şuşada Yuxarı Gövhər Ağa məscidi bərpa olunur

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi. Bildirildi ki, tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işləri 2021-ci ilin noyabr ayından başlayıb.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Yuxarı Gövhər Ağa məscidində konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universitetinin nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasına aparılır.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb. Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir. Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.















# Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlar heç vaxt unudulmur!

## Yeni Azərbaycan Partiyasının nümayəndələri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanlarını ziyarət ediblər

**Dünən Yeni Azərbaycan Partiyasının nümayəndələri 27 Sentyabr-Anım Günü ilə əlaqədar Fəxri xiyabanda müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.**

Sonra hər iki Şəhidlər xiyabanı ziyarət olunub, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub, ölkəmizin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş Vətən övladlarının, Birinci Qarabağ və Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın xatirələri ehtiramla yad olunub, məzarlarının önünə gül dəstələri düzülüb.















# Qazilərin 27 sentyabr xatirələri



27 sentyabr 2020-ci il tarixində səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir. 44 gün gedən döyüşlər nəticəsində Azərbaycanın igid oğullarının göstərdiyi şücaət nəticəsində 30 il düşmən taptağında qalan torpaqlaırmız işğaldan azad olundu. Bununla 27 sentyabr Azərbaycan xalqının tarixində ən önəmli və şərəfli günlərdən birinə çevrildi. 44 günlük Zəfər yolunda şəhidlərimiz və yaralılarımız oldu.

Mövzu ilə əlaqədar SİA olaraq 44 günlük müharibədə öz canından keçməyə hazır olan, eyni zamanda torpaqlarımızın bütövlüyü uğrunda öz sağlamlıqlarından keçən qazilərimizin bu günə bağlı xatirələrini, yaşadığı hissləri öyrənmək məqsədilə onlar arasında sorğu keçirdik.

**Vətən müharibəsi iştirakçısı Çingiz Abdullayev:** ""27 sentyabr II Vətən Müharibəsi zamanı cənab Prezidentin qismən səfərbərlik elan etməsindən sonra döyüş böl-



gəsinə getdim. Hadrut və Şuşa şəhərinin azad olunmasında iştirak etmişəm. XTQ-nin tərkibində döyüşmüşəm. 2-ci Vətən müharibəsi xalqımızın 30 illik Vətən həsrətinə son qoydu. Doğma Qarabağ və Şərqi Zəngəzur əsl sahiblərinə qayıtdı. Allah şəhidlərimizə rəhmət eləsin, qazi qardaşlarıma şəfa versin".

**Vətən müharibəsi iştirakçısı Turab Allahverdiyev:** "27 sentyabr bizim üçün ən kədərli, eyni zamanda da qürurverici günlərdən biridir. Ona görə kədərlidir ki, biz bu günlərdə igid oğullarımızı itirmişik. Lakin bununla yanaşı biz 30 illik işğal altında olan torpaqlarımızı düşən tapdağından aldıq. Əziz qardaşlarımız bizim uğrumuzda canlarından keçdilər. Allah onların hər birinə rəhmət eləsin. Şəhidlərimizin yaxınları, övladları bizim



əmanətimizdir.

44 günlük Vətən müharibəsində işğaldan azad edilən torpaqlarımıza artıq vətəndaşlarımızın gedişi təmin olunub. Artıq insanlar öz dədə-baba yurdlarına qayıdacaqlar. Cənab Ali Baş Komandanın qaldırdığı "Dəmir Yumruğ"u biz aşağı endirmədən, düşmənə qalib gəldik. Ali Baş Komandan qeyd etdiyi kimi biz onları "iti qovan" kimi qovduq. Bu gün güclü Azərbaycan ordusunun əldə etdiyi yüksəkliklərdə Azərbaycan bayrağı dalğalanır. Biz yenə də lazım olsa canımızı vətənimiz yolunda fəda etməyə hazırıq. Cənab Ali Baş Komandanımız yenidən çağırış etsə biz yenidən silaha sarılaraq cani düşməni darmadağın edəcəyik".

**Vətən müharibəsi iştirakçısı Rəfael Nuriyev:** "27 sentyabr Azərbaycanın tarixində qızıl həriflərlə qeyd olunub. Biz məhz bu gündən başlayaraq torpaqlarımızı işğaldan azad etməyə başladıq. İki il bundan öncə Ali Baş Komandan 27 sentyabrda gözlənilən irəli komandasını verdi. Bizdə tapşırıqlara uyğun olaraq əsas yüksəklikləri azad etmək uğrunda fəaliyyətimizi həyata keçirdik. Bununla da qələbənin təməlini qoyduq. Daha sonra elə bir zaman gəldi ki, bizim yanımızdakı yoldaşlarımız yaralanıb, şəhid oldular. Mən o an hiss elədim ki, bizim bu yoldan dönüşmüz yoxdur, ancaq irəli getmək lazımdır. Şükürlər olsun ki, 44 günlük mübarizədən sonra Azərbaycan öz əbədi və əzəli torpaqlarına qovuşdu. Ona görə də biz bugünü kə-



dərli yox, qürur hissi ilə qarşılamalıyıq. Düzdür, mən özümdə hazırda Şəhidlər Xiyabanından gəlirəm. İnsan hislərini cilovlaya bilmir.

"Dəmir Yumruq" hər zaman yerindədir. Nə zaman lazım olarsa o yumruqdan istifadə edərək düşməni peşman edəcəyik. 27 sentyabrda başlanan zəfər marşı 10 noyabrda onların məğlubiyyəti ilə nəticələndi. Lakin ermənilər yenə də öz xislətlərindən əl çəkməyərək təxribatlar törədirlər. Onlar bilməlidilər ki, Azərbaycan əsgəri nəyin bahasına olursa-olsun öz torpaqlarını vahid şəkildə qoruyub, saxlayacaq".

**Vətən müharibəsi iştirakçısı Vaqif Cəbrayılov:** "Bu tarix Azərbaycan xalqının oyanış günüdür. Biz bu günlərdə 30 ildir düşmən tapdığında qalan torpaqlarımızı işğaldan azad etmişik. İllərdir işğalda qalan torpaqlarımız məhz 44 gün ərzində öz sahibinə qayıtdı. Biz zəfər çalaraq ədaləti bərqərar etdik. Bizdə cənab Prezidentimizin "Dəmir Yumruq" əməliyyatına qoşulduq. Xalqımız, millətimiz, ordumuz vahid cəbhədə birləşərək düşmənin başını əzdik. Mən Murov dağdan başlayaraq Xo-



cavənd, Cəbrayıl, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Murov dağda sağ gözümdən partlayış nəticəsində ağır şəkildə yaralanmışam. Şuşa istiqamətində gedən döyüşlərdə iştirakım zamanı atılan top mərmisinə görə də qolumdan yaralandım.

Döyüşlərdə göstərdiyim şücaətə görə bir sıra medallarla təltif olunmuşam. 3-cü qrup əliliyimə görə ehtiyata buraxılmışam. Lakin ehtiyatda olsam belə hər zaman cənab Prezidentin, dövlətin və millətin arxasında dayanmışam".

**Vətən müharibəsi iştirakçısı İbrahim Həsənov:** "Mən Aprel döyüşlərində eyni zamanda da 2-ci Qarabağ müharibəsində iştirak etmişəm. Biz 44 günlük müharibə də düşmənə öz gücümüzü sübut etdik. 30 illik qara ləkəmizi biz 44 günə sildik. Ermənilər hər zaman öz təxribatları ilə gündəmdə olub. Biz onlara nə qədər güzəştə getsək də, bu münaqişəni sülh yolu ilə həll etmək istəsək



də, onlar bunu anlamadılar.

Mən Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Bizi Cəbrayıl istiqamətində döyüşəndən sonra Füzuliyə göndərdilər. Cəbrayıl, Füzuli, Hadrut istiqamətində çətin döyüşlər oldu. Çünki erməni postları həmin ərazilərdə çox idi. Düşmənində etiraf etdiyi kimi bizim igidlərimiz vurulsa da, qorxmadan, çəkinmədən onların üstünə gedirdik. Mən oktyabrın 16-da Füzulidə yaralandım. Özüm Füzuli rayonundan olduğu üçün həmin yerlərin azad olunmasında iştirak etdiyim üçün böyük qürur hissi keçirirdim. Bu günümüzə şükürlər olsun ki, dədə-baba yurdumuzu geri qaytarmaq bizə nəsib oldu. Allah şəhidlərimizə rəhmət, qazilərimizə can salığı versin. Qarabağ Azərbaycandır".

***Banuçiçək Hüseynli***

# “Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq”

*Müharibənin ilk günü Füzuli rayonunun 4 və Cəbrayıl rayonunun 2 kəndi işğaldan azad olundu*



**Xalqımız, milyonlarla insan İkinci Vətən müharibəsində qazandığımız Zəfəri böyük iftixar hissi ilə yaşayır. Bu, qürurverici bir məqamdır. İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə verdiyi dərs tarix boyu yaddan çıxmayacaq. 27 sentyabr 2020-ci il tarixində başlanan müharibə 44 gün ərzində Qələbə ilə sona çatdı. Azərbaycanın 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqları işğaldan azad olundu. Bu torpaqların işğaldan azad olunması Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycanın Müzəffər Ordusunun gücü ilə reallığa çevrildi.**

Vətən oğulları qanları ilə torpaqlarımızı işğaldan azad etdilər. Hər gün bizi Qələbəyə doğru aparırdı. ”Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu ”Nasionalnaya oborona” jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya verdiyi müsahibəsində bildirmişdi.

## ”BİZ HAQQ YOLUNDAYIQ”

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd edirdi ki, bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir: ”Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, ”Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” Bəli, 27 sentyabr tarixində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri işğaldan azad olundu. Müharibənin ilk günü. Bu artıq Ali Baş Komandan, Cənab İlham Əliyevin müdrik siyasətinin nəticəsi idi. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olundu.

## ”BİZ MÜASİR SİLAHLARDAN İSTİFADƏ EDİRİK, TEXNİKADAN İSTİFADƏ EDİRİK, DÜŞMƏNİN TEXNİKASINI MƏHV EDİRİK”

Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan şanlı qəhrəmanlıq salnaməsi yazaraq, qısa bir zamanda düşmən üzərində tarixi zəfər çaldı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoymuş oldu. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu. Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanlığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. ”Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik”, - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: ”Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir”. Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı. Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etməsi bir daha təsdiqlədi ki, tarixən olduğu kimi bu gün də Türkiyə Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verərək, həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulamışdı. Həqiqətən də belə oldu. Türkiyə dost, qardaş ölkə olaraq 44 gün ərizində Azərbaycanın yanında oldu. Ona qardaş dəstəyini əsirgəmədi.

## ”UĞURLU ƏKS-HÜCUM ƏMƏLİYYATI NƏTİCƏSİNDƏ DÜŞMƏNİN CANLI QÜVVƏSİNƏ VƏ HƏRBİ TEXNİKASINA BÖYÜK ZİYAN VURULMUŞDUR”

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı ”Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik”, - deyərək onu da bildirmişdi ki, Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir: ”Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm! ”. Xalqımız demək olar ki, hər gün xoş müjdəli xəbər alırdı. Bu, Azərbaycan xalqının 30 ilə yaxın həsrətlə gözlədiyi Qələbə soraqlı tarixi günlərin ilk müjdəsinə çevrildi.

***Nəzakət ƏLƏDDİNQIZI***




# “Jurnalistlərin media reyestrinə daxil olması yaxşı bir göstəricidir”

*JEM SƏDRİ ŞƏRH ETDİ*

“Media subyektlərinin, jurnalistlərin media reyestrinə daxil olması yaxşı bir göstəricidir”. Bu fikirləri SİA-ya açıqlamasında Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu bildirib. Onun sözlərinə görə, çünki bunun əsasında bir müəyyənlik yaranır: ”Saytlar necə olur, jurnalistlər kimdir, gələcəkdə həyata keçiriləcək layihələrdə saytların və jurnalistlərin müəyyənləşdirilməsi asanlaşır. Jurnalistlərin sosial rifahının yaxşılaşdırılması ilə bağlı Azərbaycanda çox böyük işlər görülüb və bundan sonra da görüləcək. Jurnalistlər əziyyət çəkən təbəqədəndir. Bəlkə də dünyada ən əziyyətli işdir jurnalistika. Onları bəzən səhhətlərində də tez-tez problemlər yaranır. Çünki onlar gərgin şəraitdə çalışırlar. Bütün gün xəbərin, informasiyanın əldə olunması ilə məşğul olurlar. Ona görə də bunlara nəzərən dövlət jurnalistlərə böyük güzəştlər edib. Bu günə qədər də çox güzəştlər olunub ki, media orqanlarının nəşriyyata olan borcları bağlanılıb, birdəfəlik yardımlar olunub. Hazırda Media Agentliyi saytlara və qəzetlərə layihə şəklində dəstək göstərir. Bütün bunlar tənzimlənməlidir, bir yerə toplanmalıdır. Bu, əslində, gözəl layihədir. Məlum olacaq ki, hansı saytlar var, fəaliyyət göstərir. Reyestrə girməmək də olar. Bu da bir seçimdir”.

***Abutel İlhamqızı***

# “Son iki yüz ildə ilk dəfə itirilmiş torpaqlarımızı geri qaytardıq”



“2020-ci ildə reallaşan 44 günlük Vətən Müharibəsi müstəqil Azərbaycanın ən şanlı və unudulmaz tarixidir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı məğlubedilməz ordumuzun şücaəti sayəsində 30 illik işğala son qoydu. Milyondan artıq qaçqın və məcburi köçkünümüzün yurd həsrəti bitdi”. Bunu ”Səs” qəzetinə açıqlamasında ”Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.

Onun sözlərinə görə, son iki yüz ildə ilk dəfə biz dövlət olaraq itirilmiş torpaqlarımızı geri qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik: ”27 sentyabr dünyaya Azərbaycan xalqının rəhbəri, ordusu ilə necə həmrəy olduğunu göstərdi. Ordumuzun həyata keçirdiyi misilsiz hərbi əməliyyatlar, peşəkarlıq səviyyəsi dünya hərb tarixinə düşdü. Artıq onlarla ölkə ”21-ci əsrin müharibəsi” adlandırılan Vətən Müharibəsini araşdırır, öyrənir. Ölkəmiz daxilində erməni separatizmi məhv edildi, erməni faşizminə çox ağır zərbə vuruldu. Biz 44 günlük müharibədə Bərdə, Gəncə faciələrini yaşasaq da, xalqımızın öz torpaqlarını azad etmək arzusunu heç bir qüvvənin, şər əməlin saxlaya bilməyəcəyinin şahidi olduq. Bu Zəfər minlərlə Azərbaycan övladının qanı, canı bahasına əldə edildi. Biz xalq olaraq daim şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə şəfa diləyirik”.

***Gülyana***

# Rusiyada fərarilik dalğası: səfərbərliyə qarşı etirazlar artır

**Bəzi insanlar Ukrayna cəbhəsində həlak olmaqdansa, həbsxanalarda yatmağa üstünlük verirlər**

Rusiya prezidenti Vladimir Putinin sentyabrın 21-də imzaladığı qismən səfərbərlik fərmanından sonra ölkədə kütləvi etirazlar və eyni zamanda, fərarilik dalğasına start verildi. Məsələ həm də ondadır ki, Rusiyanı tərk etmək istəyən yüz minlərlə insan müxtəlif ölkələrə təyyarə biletləri alaraq hava limanlarına, eləcə də ölkənin quru sərhədlərinə doğru axışırlar. Qeyd edək ki, müəyyən yaş həddi tətbiq edilən səfərbərliyə ehtiyatda olan zabitlərlə yanaşı, hərbi mükəlləfiyyətləri olan insanlar da cəlb olunublar. Bununla yanaşı, Rusiyanın müvafiq qanunvericiliyinə görə, hərbidən yayınanlara qarşı 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası da tətbiq olunmaqdadır. Artıq vəziyyət o həddə qədər inkişaf edib ki, ölkə xaricinə çıxmaqda imkanı olmayan insanlar müxtəlif xırda cinayətlər törətməklə həbsxanalara düşür, Ukrayna cəbhəsində həlak olmaqdansa, həbsxanalarda yatmağa üstünlük verir, məhz bu vasitə ilə sağ qalmaq, yaşamaq şanslarını qorumağa çalışırlar.



### Moskva ilə yanaşı, Sankt-Peterburq, Saratov, İrkutsk, Novosibirsk, Tomsk, Ulan-Ude, Çita...

Səfərbərliyə qarşı etiraz aksiyaları isə demək olar ki, ölkənin bütün vilayətlərində və şəhərlərinə baş qaldırmaqdadır. Bu arada, rusları etirazlarda iştirak etməyə müharibə əleyhinə "Vesna" təşkilatı və Aleksey Navalnının tərəfdaşları çağırır, vərəqlər paylayır. Etiraz aksiyaları paytaxt Moskva ilə yanaşı, Sankt-Peterburq, Saratov, İrkutsk, Novosibirsk, Tomsk, Ulan-Ude, Çita və başqa şəhərlərdə keçirilir. Artıq həmin ərəfədən etibarən indiyədək yüzlərlə insanın saxlandığı bildirilir.





Rusiya Federasiyasının daxilindəki respublikalarda da etiraz dalğaları get-gedə böyüməkdə və nəzarətdən çıxmaqdadır. Xüsusilə, etnik azlıqların kütləvi şəkildə səfərbərliyə alınmaları, üstəlik yaş həddini keçənlərin də bu sıraya salınmaları hiddətlə qarşılanır.

### Dağıstan və Çeçenistan çağırışçıları polisə müqavimət göstərirlər

Ən sərt etirazlar isə son bir neçə gündə Dağıstanda qeydə alınıb. Belə ki, respublikanın paytaxtı Mahaçqala da daxil olmaqla Xasavyurt, Dərbənd, Kaspiysk kimi şəhərlərdə hüquq-mühafizə orqanları ilə çağırışçılar, habelə zorla hərbi çağırış məntəqələrinə aparılan şəxslər arasında əlbəyaxa davalar, qarşıdurmalar yaşanıb. Hətta havaya atəşlər də açılıb. Kəskin müqavimət hallarında yaralananlar var. Onu da qeyd edək ki, bir çox yerlərdə əvvəlcədən elan edilmiş aksiyalar keçirilir. Etirazçılar aksiyalarını Telegram və s. sosial şəbəkələr vasitəsilə əlaqələndirirlər. Fəallar müxtəlif rayonlarda kiçik qruplarda iştirak etmək, daha sonra isə birləşərək "Müharibəyə yox, səfərbərliyə yox" şüarları səsləndirərək şəhərin mərkəzi küçələrini doldururlar.

Bu əsnada diqqət çəkən məqamlardan biri də budur ki, müharibənin ilk vaxtlarından Çeçenistan respublikasının başçısı Ramzan Kadırov silahlı qruplarını Ukraynaya göndərib. Lakin son çağırışdan sonra artıq çeçenlər də müharibədə iştirak etməkdən yayınmağa başlayırlar, eləcə də etiraz səslərini ucaldırlar. Amma buna baxmayaraq, Ramzan Kadırov onun səlahiyyətində olan hərbi dəstələri Ukraynaya göndərməyə davam edir.




### Yuxarı Lars yolundan Gürcüstana keçmək istəyən on minlərlə insan!

Kütləvi fərarilik halları Şimali Osetiyadan Gürcüstana gedən istiqamətdə - Yuxarı Lars yolunda müşahidə edilir. Bildirilir ki, minlərlə piyada və avtomobillər hər vəchlə, müxtəlif vasitələrlə Gürcüstan ərazisinə keçməyə çalışırlar. Vəziyyət o həddə çatıb ki, gürcü tərəfi piyada vəziyyətində sərhədi keçməyə icazə verib ki, sıxlıq aradan qaldırılsın.

Maraqlı məqamlardan biri isə budur ki, artıq Rusiya tərəfi sərhəd-keçid məntəqəsi ərazisinə ordu qüvvələri yeridib və düşərgələr salaraq mobil hərbi çağırış məntəqələri yaradır. Məqsəd səfərbərlikdən yayınan və ölkə ərazisini tərk edən çağırışçıları aşkarlamaq və dərhal Ukraynaya göndərməkdən ibarətdir. Məhz bu məsələyə görə sərhədi keçmək istəyən ruslar arasında kütləvi sıxlıq müşahidə olunur.

### Rusiya-Qazaxıstan sərhədi...

Qazaxıstan sərhədçiləri buraxılış məntəqəsindən kənarda dövlət sərhədini qanunsuz keçməyə cəhd edən üç Rusiya vətəndaşını saxlayıblar. Bu barədə Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin saytında məlumat verilib. Qeyd olunur ki, sərhəd pozucuları bugün Sərhəd Xidmətinin Kostanay vilayəti üzrə departamentinin ərazisində saxlanılıblar. Onlar bu hərəkətlərini Rusiyada həyata keçirilən qismən səfərbərlikdən yayınmaq cəhdi kimi izah ediblər.

### Zelenski təslim olanlara və fərarilərə hansı vədləri verib?

Qeyd edək ki, Ulrayna prezidenti Vladimir Zelenski müharibədə iştirak etmək istəməyən rusiyalı çağırışçılara müraciət edib. O vəd verib ki, əgər cəbhədə ağ bayraq qaldıraraq Ukrayna silahlı qüvvələrinə öz xoşu ilə təslim olmaq istəyənlər varsa onlar dərhal qəbul ediləcək və sonradan üçüncü ölkələrə təhvil veriləcəklər. Bu günlərdə Monqolustan prezidenti də TV vasitəsi ilə çıxış edib və o sözügedən məsələyə fərqli cəhətdən yanaşıb. Daha dəqiq desək, yakut, nanay, nenets və s. kimi bölgə etniklərini qeyd-şərtsiz qəbul edəcəyini bildirən Monqolustanın dövlət başçısı onlar üçün ölkəsində hər cür şəraitin yaradılacağını vəd edib.

### Müharibə həm Rusiya, həm də Ukrayna insanlarını yorub

Lakin ortada olan fakt budur ki, Rusiyanın Ukrayna ilə müharibəsi kifayət qədər çox həyatları məhv edib, insanları öldürüb. Məhz bu reallığı anlayan rusiyalı vətəndaşlar həm də boş yerə davam edən qardaş qırğınında günaha batmaq istəmədiklərini bildirirlər.

Baxmayaraq ki, Rusiyanın dövlət TV-ləri kifayət qədər kütləvi təbliğat kampaniyaları aparır müharibədən yayınmaq istəyənlər də bir o qədər də çoxalır. Bu savaşda minlərlə canlı itkilər verən Rusiyanın bir sıra dövlət dairələri, əsasən də miqrasiya xidmətləri artıq bu ölkədə çalışan digər ölkələrin vətəndaşlarına da təkliflər verirlər. Misal üçün, onlara bildirilir ki, qısa müddətdə RF-nın vətəndaşlığı veriləcək və hərbi mükəlləfiyyətli kimi qeydə alındıqdan sonra həmin insanlara yüksək məvacib ödəniləcək və s. Lakin bu təkliflərdən imtina edənlərin olduğu kimi, qəbul edənlər də tapılır...

Ancaq fakt budur ki, artıq müharibə həm Rusiya, həm də Ukrayna insanlarını həqiqətən də yorub və bu savaşın hələ nə qədər can alacağını isə kimsə deyə bilməz...

***Rövşən RƏSULOV***

# Xalq öz şəhid oğullarını unutmur!

## 27 Sentyabr – Anım Günü ilə əlaqədar respublikanın bütün bölgələrində anım mərasimləri keçirilib

### Tərtər

Dünən Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının sədri Eldar Əsədov və təşkilatının əməkdaşları sentyabr ayının 13-də Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən ya-



ralanan Tərtər rayonun Qaradağlı kənd sakini, baş gizir Nəcəfli Toğrul Mehdi oğluna baş çəkərək onun səhhəti ilə maraqlanmışlar. Görüş zamanı YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov Rəşadətli Azərbaycan Ordusunu şanlı qələbəyə aparan zəfər yolundan, döyüşdə qəhrəman əsgərlərimizin necə şücaətlə vuruşduqlarından, torpaqlarımız azad olunduqca yaşanılan sevinc hisslərindən danışmışdır. Daha sonra yaralı hərbiçimizin problemləri və onları narahat edən məsələlər dinləmişdir. Qeyd edək ki, hərbçimiz Zəngilan istiqamətində yaralanmışdır. Vurğulayaq ki, hərbçimiz idman sahəsində ölkəmizi uğurla təmsil edərək yüksək nəticələr göstərmişdir. Ailənin 3 övladı hal-hazırda Azərbaycan Silahlı Qüvvələrində xidmət edir. Sonda yaralı hərbçimiz dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirmişdir. Allah Müzəffər Ali Baş Komandanımızı və Qalib Azərbaycan Ordusunu qorusun!

### Daşkəsən

Sentyabrın 27-də Daşkəsəndə Anım Günü münasibətilə rayonun 4000-dən çox sakini Daşkəsən Şəhidlər Xiyabanını ziyarət edib. SİA-nın xəbərinə görə, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidlər Xiyabanındakı əbədi məşəlin önünə əklil qoyub. Həmçinin icra başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbçilər, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri və sakin-



lər şəhid məzarlarını ziyarət edərək gül düzüblər.

Anım Günündə Əhəd Abıyev şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları və qazilərlə birgə Şəhidlər Xiyabanının ərazisində ağacəkmə aksiyası keçirib, eyni zamanda şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və qazilərin qayğıları ilə maraqlanıb. Bundan son-



ra icra başçısı Əhəd Abıyev rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri və qazilərlə birgə Vətən müharibəsi şəhidi Ələsgərov Pərviz Lətif oğlunun 38-ci doğum günü ilə bağlı Mədənçilər qəsəbəsində Şəhidin valideynlərinin yaşadığı evdə olub. Əhəd Abıyev Şəhidin valideynləri və ailəsi ilə söhbət edib, Pərviz Ələsgərovun döyüş yolundan söhbət açıb, habelə Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın şəhid ailələrinə və qazilərə göstərdikləri diqqət və qayğıdan danışıb. Şəhidin atası Lətif Ələsgərov, anası Aybəniz Ələsgərova və həyat yoldaşı Mətanət Ələsgərova ailələrinə hər zaman göstərilən həssas münasibətə və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

### Pirallahı



Dünən həmçinin Pirallahı rayonunda 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin yad edilməsi məqsədilə rəsmi anım tədbiri keçirilib. SİA xəbər verir ki, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanovun,



rayonun hüquq-mühafizə orqanlarının və rayon ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatların rəhbərlərinin, Pirallahı rayonundan 44 günlük Vətən müharibəsində iştirak etmiş veteran, qazi və şəhid ailələrinin iştirakı ilə keçirilən tədbir "Vətən uğrunda" abidə kompleksi qarşısında baş tutub. Tədbirdən öncə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə qovuşan Pirallahışəhidlərinin əziz xatirəsi ehtiramla yad olunub. "Vətən uğrunda" abidə kompleksinin ətrafı və mərkəzi yol boyu ağacəkmə aksiyası təşkil edilmiş və şəhidlərimizin əziz xatirəsinə 150 ədəd müxtəlif növ ağac və gül kolları əkilib.



Aksiya başa çatdıqdan sonra RİH başçısı və qonaqlar tədbirin baş tutacağı abidə kompleksinin qarşısına gəlmiş və ümumrayon tədbiri açıq elan olunub. Tədbir Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi və Pirallahı şəhidlərinin şəkillərinin əks olunduğu abidə kompleksinin qarşısına gül dəstələrininqoyulması ilə başlamışdır. Dar çərçivədə keçirilən tədbirdə Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov açılış nitqi ilə çıxış edərək, 27 sentyabr tarixinin xalqımızın müstəqillik dövrünün ən vacib günlərindən biri və 30 illik işğalın, zülmün, qanunsuzluğun sonunun başlanğıcı günüolduğunu bildirmişdir. Bununla yanaşı, RİH başçısı 44 günlük müharibədə iştirak edərək şücaət göstərmiş, qəhramanlıqla həlak olmuş və ya sağlamlığını itirmiş hər bir vətəndaşın öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdığını və onların hər birinin daim dövlət qayğısı ilə əhatə olunduğunu vurğulamışdır. Həmin günlərdə 97 rayon sakini Vətən müharibəsində qəhrəmanlıqla iştirak edib.

Tədbirdə Vətən müharibəsi iştirakçısı, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuş Kazımov Anar İlqar oğlu çıxış edərək bildirdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın mətanəti və əsgərlərimizin qəhrəmanlığı nəticəsində əldə olunan möhtəşəm qələbə Azərbaycanın şanlı tarixinə əbədi olaraq həkk olunmuşdur. Bununla yanaşı, A.Kazımov dövlətimizindaim şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarınadiqqət və qayğı ilə yanaşdığını və hər bir şəxsin bu diqqəti öz üzərində hiss etdiyini qeyd etdi. Natiq bunun üçün bütün Vətən müharibəsi iştirakçıları, qaziləri və şəhid ailələri adından Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə etdi.



## Quba

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının "Fətəlixan küçəsi, 4" ( ADPU Quba filialı) ərazi partiya təşkilatında Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Fidan Hüseynova, ADPU Quba filialının direktoru dosent Yusif Alıyev, "Vətən Naminə" Şəhid ailələrinə dəstək İctimai Birliyin sədri Tünzalə Abduləlimova, Şəhid valideynləri, Şəhid ailələri, 44 günlük müharibə iştirakçıları, filialın professor-müəllim və tələbə kollektivi iştirak edib.





Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında canlarını qurban vermiş Şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə açıq elan edilib.Tədbirdən sonra filialda Şəhidlərimizin xatirəsinə verilən ehsan süfrəsi ətrafında söhbətlər aparılıb, ruhlarına dualar oxunub. Vurğulanıb ki, Şəhidlik zirvəsinə ucalan qəhrəmanların keçdikləri şərəfli ömür yolu gələcək nəsillər üçün örnəkdir. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsini və adını uca tutmaq, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərmək hər bir insanın vətəndaşlıq borcudur. Xalqımız hər zaman 27 Sentyabr - Anım Gününü böyük ehtiram və hörmətlə yad edəcək, öz canı-qanı bahasına şanlı Zəfər tariximizi yazan şəhidlərimizin əziz xatirəsini daim qəlbində yaşadacaqdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## Qaradağ

Qaradağ rayonu Lökbatan qəsəbəsi Heydər Əliyev Mərkəzində 27 sentyabr Anım Günü ilə bağlı ümumrayon tədbiri keçirilib.Tədbirdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı, şəhid ailələri və qazilər, rayon icra hakimiyyətinin rəsmiləri, Milli Məclisin deputatları, YAP Qaradağ rayon Təşkilatının sədri və ictimaiyyət nümayəndələri iştirak edirdi. Foyedə Şəhid Hüseynli Türkayın atası Hüseynov Nizaminin kitab təqdimatı və 5 nömrəli Uşaq İncəsənət Musiqi məktəbinin şagirdlərinin rəsmləri sərgiləndi. Respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsinə bir dəqiqəlik sükut elan edildi. Daha sonra Dövlət himni ifa olundu."Anım Günü"nə həsr olunmuş tədbirdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov qeyd etdi ki, ötən il 27 sentyabr tarixində başlayan Vətən müharibəsinin Azərbaycanın tarixi qələbəsi ilə başa çatdığını, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanatla münaqişəyə son qoyulduğunu, bu, sənədin həmçinin Ermənistanın kapitulyasiya aktı olduğunu, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək, həm tarixi ədaləti, həm də ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdırıb.



Qeyd edilib ki, Vətən müharibəsində Qaradağ rayonu üzrə 2514 nəfər iştirak etmiş, onlardan 46 nəfəri şəhidlik zirvəsinə yüksəlmiş, 157-si isə yaralanmış, 65 nəfər əlillik dərəcəsi almışdır. Ərazilərin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident

cənab İlham Əliyevin sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı, müxtəlif orden və medallarla təltif olunmuşlar.

## Zəngilan

27 Sentyabr - Anım Günü ilə əlaqədar Zəngilan rayonunun Ağalı kəndində anım mərasimi təşkil olunub. Qurumun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, tədbir Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə reallaşdırılıb.

Aksiyada Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, hüquq mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və könüllülər iştirak ediblər.



Mərasim iştirakçıları müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən 44 günlük Vətən müharibəsində qazanılmış parlaq qələbədən söz açıblar. Diqqətə çatdırılıb ki, şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqı və dövlətimiz tərəfindən daim ehtiramla yad edilir. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir çərçivəsində, həmçinin ağacəkmə aksiyası gerçəkləşib. Sərv, zeytun, eldar şamı və digər növ olmaqla, ümumilikdə 3000-ə yaxın ağac əkilib.

# ANIM GÜNÜ FƏLSƏFƏSİ




**Vətən uğrunda canlarından keçmiş, şəhid olmuş əsgərlərimizin, zabitlərimizin xatirəsi əziz tutulur, xalqımız və dövlətimiz tərəfindən dərin hörmətlə anılır. Məhz 27 sentyabr tarixinin Anım Günü olaraq qeyd edilməsinin fəlsəfəsi də budur. Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin bu günün, 27 sentyabr tarixinin Anım Günü olaraq qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncamın da bu baxımdan əhəmiyyəti olduqca böyükdür.**

Xalqımız bu zamana qədər vətən uğrunda həlak olan bütün şəhidlərini daim dərin hörmətlə yad edib və yenə də bu ənənə davam edir, çünki şəhirlərimizin xatirəsi unudulmazdır, hörmətlə anılmalıdır da. Şəhidlər xiyabanında vətəndaşlarımızın necə böyük hörmətlə toplaşdıqları, şəhidlərimizi unutmadıqları, hansı ehtiramla yad etdikləri, andıqları bizə məlum olmaqla yanaşı, bütün dünyaya da əyandır. Dünya ictimaiyyəti xalqımızın öz şəhidinə necə böyük hörmət və ehtiram bəslədiyini görür və bu danılmazdır. Danılmazdır ki, Azərbaycan xalqı öz şəhidini daim uca tutub, uca tutur və bundan sonra da uca tutacaq və bu zirvəyə, şəhidlik zirvəsinə ucalanlar daim hörmət və ehtiramla anılacaq.

Etiraf edək ki, bu zamana qədər xalqımız şəhidlər xiyabanını tamamilə başqa ab-havada, tamamilə başqa əhval-ruhiyyədə ziyarət edirdisə, indi, qələbə əldə etdiyimizdən sonra, Zəfər qazandığımızdan sonra tamamilə fərqli, daha böyük qürur hissi ilə, qalib xalq olaraq ziyarət edir. Ötən əsrin sonlarında, ikinci dəfə dövlət müstəqilliyini əldə edən, elə bu ərəfədə də tarixinin ən çətin sınaqları ilə üz-üzə qalan Azərbaycan xalqı Qarabağ və ətraf rayonların işğalı nəticəsində on minlərlə şəhid verdisə də, artıq Zəfər qazanması, torpaqlarını işğaldan azad etməsi, düşməni məğlub etməsi ilə onların qisasını da almış oldu. Anım Gününün fəlsəfəsi dedikdə, məhz xalqımızın başına gələnləri, qələbə uğrunda mübarizəsini, xüsusən də Zəfər salnaməsini anmaq, unutmamaq, nəsildən-nəsilə ötürmək, yaddaşlarda yaşatmaq başa düşülür. Həqiqətən də özünün son iki yüz illik tarixində ilk dəfə qazandığı qələbəsini, əldə etdiyi Zəfəri Azərbaycan xalqı unutmayacaq, hər an, xüsusilə də hər il 27 sentyabr tarixində böyük coşqu ilə anacaq. Torpaqlarımızın növbəti dəfə işğalına can atan erməni separatçılarına cavab olaraq, Azərbaycan xalqının bir yumruq şəklində birləşməsi, dəmir yumruğa çevrilməsi sözün əsl mənasında qürur duyulacaq bir məqamdır və bunu unutmamaq, birliyimizin, həmrəyliyimizin necə böyük qüvvə olduğunu, bizi qələbələrə apardığını daim anmaq lazımdır və hər il Anım Günü bu həqiqətin hamı tərəfindən anıldığı gündür.

Əlbəttə ki, ölkə rəhbərimizin, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, liderliyi, xalqımızın birliyi, Azərbaycan Ordusunun şücaəti qarşısında tab gətirməyən düşmən şər maşınını işə salsa da bu, məntiqi nəticəyə, qələbəmizə mənfi təsir edə bilmədi. Dünyanın inkişaf etmiş, qabaqcıl dövlətlərinin rəhbərləri Ali Baş Komandana zəng edərək müharibənin dayandırılması barədə söz açsalar da, ölkə rəhbərimizin qətiyyəti ilə üzləşməli oldular və onlar qarşılarında Azərbaycan xalqına, Azərbaycan Ordusuna arxalanan, güvənən dövlət başçısını gördükdə, bildilər ki, qazanacağımız Zəfər Günü uzaqda deyil. Belə də oldu, ən tez zamanda Zəfər qazandıq və indi qazandığımız bu Zəfərin hansı yoldan keçdiyini də anırıq və bu baxımdan da cəsarətlə deyə bilərik ki, Anım Günü bizim fəxarət günümüz, qürur günümüzdür.

Azərbaycan öz həqiqətlərini, haqlı mövqeyini növbəti dəfə sübut etdi və 27 sentyabr tarixindən başlayaraq, 30 ilə yaxın müddətdə bütün dünyanın icra edə bilmədiyi BMT-nin məlum dörd qətnaməsinin icrasını öz üzərinə götürdü və bunun öhdəsindən ən qısa zamanda, 44 gün müddətində gəldi. Terrrçuların, separatçıların, işğalçıların torpaqlarımızdan qovulması istiqamətində Azərbaycanın reallaşdırdığı hərbi əməliyyatlar bütün dünyanın marağına səbəb oldu və ölkəmizin apardığı hərbi əməliyyatlar bu gün dünyanın tanınmış, məşhur hərbi məktəblərində öyrənilir, eləcə də təlim edilir. Çünki Azərbaycan Ordusu öz şücaəti, öz bacarığı ilə dastan yazdı və yağı düşmənə hərb sənətində dərs keçdi. Qarabağın hər qarışının erməni işğalından azad edilməsi uğrunda rəşadətlə vuruşan Azərbaycan əsgəri xüsusilə, Şuşanın azad edilməsində qəhrəmanlıq salnaməsi yaratdı. Qayalara qartallar kimi qalxan Azərbaycan oğulları yurumuzu işğal altında saxlayan yağılara mərdliyin, kişiliyin nədən ibarət olduğunu göstərdilər. Şuşanın işğaldan azad olunması zamanı Azərbaycan oğulları düşmən üstünə aslanlar kimi atıldılar və ermənilərə bundan sonra unutmayacaqları şok yaşatdılar, hansıki bunu hər zaman anmaq, unutmamaq gərəkir. Biz, Anım Günündə, təkcə Vətən uğrunda savaş zamanı canını fəda edən şəhidlərimizi deyil, torpaqlarımızın hər qarışı uğrunda canından keçməyə hazır olaraq, düşmən üzərində qartallar kimi şığıyan vətən oğullarının fədakarlığını, mərdliyini, qorxmazlığını da anırıq. Anırıq və yaddaşlarda yaşadırıq ki, bundan sonra gələn nəsillərə örnək olsun və onlar da Vətənə sədaqətli, qorxmaz, cəsur qoç igidlər kimi yetişsinlər.

Bəli, 27 senytabr tarixindən başlayaraq, cəmi 44 gün ərzində Azərbaycan hərb meydanında saysız-hesabsız mərdlik nümunələri göstərdi. Bütün bunlar Azərbaycanın həm hərbi gücünü, həm də potensialını göstərən həqiqətlər olaraq bütün dünyada qəbul olundu. Hazırda dünyada olduqca mürəkkəb proseslərin getdiyi, yeni dünya nizamının formalaşdığı bir zamanda əlbəttə ki, yeni qurulan təhlükəsizlik sistemində Azərbaycanın dövlət və milli maraqlarının qorunması üçün ən yüksək standartlara cavab verən ordusunun, inkişaf etmiş iqtisadiyyatının, milli birliyinin olması olduqca vacibdir. Ölkəmiz bu vacib olana da sahib olduğunu məhz 44 günlük müharibə zamanı təsdiq etdi və bunu da hər an, ələlxüsus hər il Anım Günündə yada salmaq, bütün dünyaya xatırlatmaq gərəkir, çünki hələ də Azərbaycanın uğurlarına, qələbələrinə görə yuxusu ərşə çəkilənlər var və Zəfərimizi həzm etməyənlərin bərədə, pusquda durduqları heç kim üçün sirr deyil. Sirr deyil ki, Cənubi Qafqazda gərginliyin saxlanılmasında Ermənistanla yanaşı, kifayət qədər xarici qüvvələr də var və onlar Azərbaycanın yaratdığı reallıqları, bölgədə təhlükəsizlik mühitini öz geosiyasi maraqları üçün təhlükə olaraq görürlər və məhz bu baxımdan da biz xalq, dövlət olaraq, hər an xarici təhdidlərə hazır olmalı, artıq özünü hərb meydanlarında, diplomatik masada təsdiq etmiş cənab Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməliyik ki, daim qələbələrə imza ataq və ərazi bütövlüyümüz, suverenliyimiz uğrunda canından keçən vətən övladlarının da ruhu şad olsun.

***İnam Hacıyev***

## "Qazandığımız qələbə qəhrəmanlıq səhifəmizdir"



"Son 200 illik tarixdə ermənilər azərbaycanlıları yaşadıqları torpaqlardan sıxışdırıb çıxartmış və özlərinə dövlət yaradaraq ərazilərinin genişləndirilməsinə nail olmuşdur. Ermənilər əsasən havadarların dəstəyi ilə Azərbaycan torpaqlarının müəyyən hissəsinin ələ keçirilməsinə nail ola bilmişdir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, erməni daşnak dəstələri zaman-zaman soyqırımlar törətməklə azərbaycanlıları öz ata yurdlarından məcburi şəkildə köçürülməsinə nail ola bilmişdir: "Son yeni tariximizdə Qərbi Azərbaycanda yaşayan 300 min soydaşımız illər ərzində qurduğu ata yurdlarını qoyaraq Azərbaycana qaçmağına məcbur edilmiş, ərazilərimizin 20%-nı işğal etməklə 700 min vətəndaşımızın ölkə daxilində qaçqın olmasına nail ola bilmişdir. Xocalı, Başlıbel, Ağdaban və Bağanıs ayrım soyqırımları ermənininin iç üzünü açıb göstərən tariximizin qanlı səhifələri kimi yaddaşlarımıza həkk olunmuşdur. Azərbaycan 30 ildə torpaqlarının işğaldan azad olunması və məcburi köçkünlərin öz yurdlarına qaytarılması ilə bağlı beynəlxalq hüquqün bərqərar olunması üçün səbir nümayiş etdirdi. BMT TŞ-nın qətnamələrinin icra olunması üçün beynəlxalq kürsülərdən dünya ictimaiyyəti Ermənistana təzyiq göstərilməsi ilə bağlı çağırışlar etdi. Hətta, Azərbaycan xalqın işğalla heç vaxt barışmayacağını və əgər danışıqlar yolu ilə torpaqlarımızda erməni işğalına son qoyulmazsa, hərb yolu ilə öz gücümüzlə bunu edəcəyini dəfələrlə bəyan etdik. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət ancaq qətnamələr qəbul etməklə kifayətləndi və münaqişəni dinc yolla həll edilməsi üçün BMT-dən mandat almış ATƏT-in Minsk Qrupu torpaqlarımızın erməni işğalını əbədiləşdirilməsinə çalışdı".

Azər Badamov onu da bildirdi ki, Cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən ordu quruculuğuna xüsusi diqqət göstərdi və bu, Silahlı Qüvvələrimizin inkişafında və gücləndirilməsində yeni səhifə açdı: "2016-cı il aprel döyüşləri, 2018-ci il Günnüt əməliyyatı və 2020-ci ilin Tovuz təxribatlarının qarşısı alınanda Müzəffər Ordumuzu düşmənə öz gücümüzü qismən nümayiş etdirmişdi və bu, Ermənistan üçün bir mesaj idi. Təəsüf ki, Ermənistan rəhbərliyi mesajlarımızdan nəticə çıxartmadı və 27 sentyabr 2020-ci ildə yenidən geniş miqyaslı təxribata əl atdı. Hətta Ermənistanın məqsədi yeni ərazilər uğrunda yeni müharibə şüarı ilə Azərbaycanla müharibə aparmaq və yeni ərazilərimizi işğal etmək idi. Ali Baş Komandanın çağırışına yekdilliklə qoşulan xalqımız ordumuzla həmrəylik nümayiş etdirərək Dəmir Yumruğa çevrildi. Ermənilərin 30 illik işğal dövründə qurduqları müdafiə sədlərini yüksək peşəkarlıqla aşan Müzəffər Ordumuz 44 gündə torpaqlarımızın erməni işğalına son qoydurdu və 10 noyabrda imzalanmış Üçtərəfli Bəyanatla Ermənistanın məğlubiyyəti təsdiq olundu. Azərbaycan son 200 illik tarixində ilk dəfə olaraq öz torpaqlarını döyüş meydanında işğaldan azad etdi. Təbii ki, 44 günlük Vətən müharibəsində qazandığımız qələbə qəhrəmanlıq səhifəmizdir. Bu qələbə xalqımıza böyük qürur yaşatdı və Azərbaycana bütün dünyada qalib ölkə imicini formalaşdırdı. 44 günlük Vətən müharibəsində təmin etdiyimiz qələbə dünyanın Azərbaycana qarşı baxışlarını dəyişdi. Müzəffər Ordumuzun şücaəti və göstərdikləri peşəkar döyüş strategiyası dünyanın inkişaf etmiş ölkələri öz ordularına yenidən baxılmasını aktullaşdırdı və təcrübəmizi hərbi kadrların hazırlanmasında tədrisə daxil etdilər. Beləliklə, bu qüruru bizə yaşadan xalqımızın vətənpərvər igid oğulları olmuşdur. Təəssüf ki, Vətən müharibəsində biz də 2907 nəfər şəhid verdik, 7 nəfər itkin düşdü və mindən çox əsgər yaralandı. Prezident İlham Əliyev bütün şəhid ailələri və qazilərə xüsusi diqqətlə yanaşır. Bu kateqoriyadan olan insanlar dövlət qayğısı ilə əhatə olunmuş, onların sosial-məişət problemlərinin həll olunmasına çalışılır."

***Gülyana***



# Putin: "Biz boş yerə danışırıq"

Rusiya prezidenti Vladimir Putin bildirib ki, Ukraynadan çıxarılan taxıl hələ də bu kənd təsərrüfatı məhsuluna həqiqətən ehtiyacı olan yoxsul ölkələrə çatdırılmır. SİA xəbər verir ki, bu barədə Putin kənd təsərrüfatı məhsulları ilə bağlı keçirilən görüşdə danışarkən deyib. Rusiya lideri qeyd edib ki, iyulda İstanbulda imzalanan taxıl sazişindən sonra Ukrayna limanlarını tərk edən 203 taxıl gəmisindən yalnız dördü BMT-nin proqramı ilə yoxsul ölkələrə ərzaq məhsulları çatdırır: "Ukraynada taxıl yoxsul ölkələrə getməməkdə davam edir. Bunu deyirik, amma boş yerə. Heç kim eşitmir".

***Qönçə Quliyeva***

# Haqq savaşımız:
## bərpa olunan tarixi ədalət



**Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən Zəfər tariximiz 44 günlük qətiyyətli yolun sonunda yazıldı. Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi öz sözünü demiş oldu. İki il bundan əvvəl başlanan müharibədə minlərlə vətən oğlu şəhid oldu. Onların qanı ilə suvarılan vətən torpağının başı bu gün ucadır. 27 sentyabrın ölkəmizdə dövlət başçısının Sərəncamı ilə Anım günü kimi qeyd olunması şəhidlərimizin ruhuna olan ehtiramın əlamətidir. "Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik", - deyən dövlət başçısı bildirib ki, şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq: "Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək".**

Ötən əsrin 90-cı illərində baş verən hadisələr Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri Azərbaycana qarşı hərbi təcavüzlə nəticələndi. 1990-cı illərin əvvəlində Azərbaycan olduqca mürəkkəb vəziyyətlə, siyasi, iqtisadi böhranla üz-üzə olduğu zamanda Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü. Cənab Prezident bildirib ki, müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq: "Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq". Müharibə dövründə hər bir azərbaycanlı Azərbaycan Prezidentinin ətrafında daha sıx birləşdi. Və hər kəs Ali Baş Komandanın əmrini gözləyirdi. Xalq-iqtidar birliyi ən çətin anda belə özünü göstərdi. Dövlət başçısının bildirdiyi kimi, Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi: "Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq".

### "MƏN DEYƏNDƏ Kİ, "QARABAĞ AZƏRBAYCANDIR", BU, HƏQİQƏTDİR"

Xatırlatmaq yerinə düşərdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Əlbəttə ki, Azərbaycan heç bir təxribata yox, öz torpaqlarını işğaldan azad olunması istiqamətində ayağa qalxdı. Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Əlbəttə ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Həmin döyüşlərdə ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin gücü öz sözünü demiş oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunu bir daha göstərdi. Əlbəttə ki, Tovuz döyüşləri böyük qələbənin başlanğıcı oldu. "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir". Ermənistan silahlı qüvvələri qısa müddət ərzində darmadağın edildi. Bundan sonra Ermənistan silahlı qüvvələrinə, dövlət olaraq Ermənistana özünü bərpa etmək üçün illər lazım olacaq. Bu tarixi qələbə Azərbaycan tarixinə məğlubedilməzlik kimi həkk olundu. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbi oldu. Bu gün xalqımızın qələbə sevincini bizə yaşadan Ali Baş Komandana və Azərbaycan Ordusuna ehtiramı sonsuzdur. Qələbə məğrur Azərbaycan xalqına çox yaraşır.

### "O TORPAQLARA ARTIQ HƏYAT QAYIDIR, İNSANLAR QAYIDIR"

Müharibə dövründə ermənilər fərarilik göstərdi. Azərbaycan xalqı isə məğlubedilməzliyini ortaya qoydu. Statistik məlumatlara əsasən, Ermənistan ordusunda 10 mindən çox fərari olub. "Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik", - deyə Cənab Prezident bildirib. Bu gün Azərbaycan xalqı şəhidlərimizi böyük ehtiramla yad edir. Bu Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza böyük ehtiramın nümunəsidir. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdirdilər. Xalqımız mərd, məğrur insanları ilə qürur duyur və illər, əsrlər boyu bu xatirələrdə, əsərlərdə yaşanılacaq. Bir dastana, eposa çevriləcək. Hər bir vətən oğlu qəhrəman övlad kimi gələcək nəsillərə nümunə olaraq təqdim ediləcəkdir. "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımız işğaldan azad edildi. Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyini, gücünü bütün dünyaya nümayiş etdirdi. 2020-ci ilin noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"- deməsi hər bir azərbaycanlının qəlbində böyük bir sevinc yaşatdı. Əvəzsiz və əbədi sevinc hissini. "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi". - deyə Prezident bildirib. Şəhidlərimizinin, qəhrəman oğulların vətənpərvərliyi, şücaiəti sayəsində Azərbaycan böyük bir qələbəyə imza atdı. Canlı qüvvə və döyüş texnikası sarıdan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Zəfəri, Qələbəsi ilə başa çatdı. Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara BÖYÜK QAYIDIŞA başlayıb: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir", - deyə Cənab Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***



# Nüvə siqnalları

*ABŞ və Rusiyadan "qırmızı xətt" xəbərdarlığı*



26 sentyabr 2022-ci ildə BMT Baş Assambleyasının 77-ci sessiyasında başa çatan ümumi siyasi müzakirələr Ukrayna münaqişəsinə iki alternativ Qərb və Şərqin yanaşmasını ortaya qoydu. Çin, Hindistan və qeyri-Qərb dünyasına aid nümayəndələrinin bəyanatları göstərdi ki, bu ölkələr qarşıdurmada Rusiyanı nüvə müharibəsi ilə hədələyən yeganə günahkar kimi tanımağa hazır deyillər. Şərq ölkələri münaqişənin hər iki tərəfinə məsuliyyət qoyur və onun həllini tərəflərdən birinin hərbi qələbəsində deyil, geri dönüşü olmayan nöqtəni keçməmək üçün yaradılmış gərginliyin azaldılmasında görürlər.

Sentyabrın 19-dan 26-na kimi keçirilən BMT Baş Assambleyasının yüksək səviyyəli həftəsi Ukrayna böhranının kəskinləşməsi, diplomatiya mexanizmlərinin dağıdılması, habelə getdikcə sərtləşən ekstremal şəraitdə diplomatik marafona çevrildi. Rusiya və Qərbin nüvə münaqişəsinin mümkünlüyü ilə bağlı ritorikası. ABŞ və onun avropalı müttəfiqləri ilk günlərdən Ukraynanı dəstəkləmək yolundan dönməmək və Rusiyanın hərbi məğlubiyyətinə nail olmaq əzmində olduqlarını bir daha təsdiqləsələr də, Şərq ölkələri bu oyunda qaliblərin olmayacağını açıq şəkildə bəyan etdilər. Hamı uduzacağını proqnozlaşdıranlar İkinci Dünya Müharibəsindən sonra ən dağıdıcı münaqişənin qarşısını almaq üçün təcili olaraq diplomatiyanın yeni mexanizmlərindən istifadə etməyin lazım olduğunu deyirlər.

Çinin xarici işlər naziri Vanq Yi Baş Assambleyanın 77-ci sessiyasındakı çıxışında Ukrayna münaqişəsinin mənfi nəticələrinin digər regionlara yayılması təhlükəsindən danışıb. Pekin rəsmizi bütün tərəflərə ünvanladığı ənənəvi sülh nizamlanma çağırışı ilə məhdudlaşmayaraq qeyd edib ki, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət və mübahisələr isə dialoq yolu ilə həll edilməlidir.

Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib ki, Rusiya nüvə silahından istifadə məsələsinə münasibətini dəyişmir. Belə ki, o, son bir həftə ərzində Vladimir Putinin nüvə zərbəsi endirməyə qadir olduğu barədə sözlərinin blef olmadığını bir daha xatırladıb.

Silahlara nəzarət məsələləri ilə birbaşa məşğul olan xarici işlər nazirinin müavini I Kanalın efirində danışarkən deyib ki, ABŞ-ın Rusiyaya qarşı apardığı "təhlükəli xətt"siyasəti iki ölkə arasında "daimi siqnal mübadiləsi" ilə müşaiyyət olunacaq. Moskva Vaşinqtona "soyumağı" təklif edib. Əks halda nə olacaq? Ryabkov da Putin kimi müəyyən şərtlər altında Rusiya Federasiyası tərəfindən nüvə silahından istifadənin istisna edilmədiyini açıq şəkildə söyləyib: "Amerikalılarla təmaslarımızda dəfələrlə qeyd etdiyimiz kimi, Rusiyanın bu mövzuya doktrinal yanaşmalarında heç bir dəyişiklik baş verməyib, hər şey bizim hərbi doktrinamızın müəyyən etdiyi eyni məcrada və eyni çərçivədə qalır".

Onun sözlərinə görə, Rusiya Federasiyası nüvə silahından təkcə öz ərazisində və ya müttəfiqin ərazisində deyil, Rusiyaya qarşı təhlükə olacağı istənilən ərazidə nüvə silahından istifadə etmək hüququnu özündə saxlayır. O, həmçinin "Rusiya Federasiyasına qarşı adi silahlardan istifadə etməklə təcavüz zamanı, dövlətin mövcudluğu təhlükə altında olduqda" da istifadə oluna bilər. Kreml bu təhlükənin nə kimi qiymətləndirilməli olduğu barədə açıqlama verməyib. Ukraynanın Rusiya Federasiyasına birləşdirdiyi ərazilərə hücumunun belə hesab edilib-edilməyəcəyi hələ də bəlli deyil.

Rusiyanın Xerson, Donetsk və ya Krımada yaranacaq vəziyyətə uyğun olaraq verəcəyi nüvə zərbəsi variantı Qərbdə açıq şəkildə narahatlıq doğurmaqdadır. Bunun Rusiya Federasiyası üçün nəticəsiz qalmayacağını ABŞ prezidenti Cozef Bayden də deyib. Birləşmiş Ştatların prezidenti BMT tribunasından Rusiya liderini "Avropaya qarşı nüvə silahından istifadə ilə bağlı açıq-aşkar təhdidlərdə" ittiham edib. Bu təhdidlər reallaşarsa, Vaşinqtonun reaksiyasının necə olacağını isə dəqiqləşdirməyib.

ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cek Sullivan məlumatı bir az da dəqiqləşdirib. O, bildirib ki, Rusiya "qırmızı xətti keçərsə" onun "fəlakətli nəticələr"inə də qatlanmalı olacaq. Rusiya Federasiyası ilə ABŞ arasında bu mövzuda siqnallar mübadiləsi aparıldığını və amerikalıların gizli şəkildə Kremlə nüvə silahından istifadəyə Amerikanın "qətiyyətli cavabının" konkret olaraq nə olacağını deyən də ilk dəfə məhz Sallivan olub.

Bu məsələ ilə bağlı Amerika tərəfdən ən konkret izahatı isə dövlət katibi Entoni Blinken verib. CBS telekanalına müsahibəsində o bildirib ki, Ağ Evin Rusiyanın nüvə silahından istifadəsinə necə cavab verməsi planı var. Bu planın mahiyyəti, amerikalılar tərəfindən Kreml nümayəndələri ilə qapalı təmaslar zamanı açıqlanıb. "Biz açıq şəkildə və özəl olaraq nüvə silahları ilə bağlı boş söhbətləri dayandırmaq barədə danışdıq", deyən Blinken, Rusiyanın nüvə zərbəsi endirəcəyi halda "nəticələrinin yalnız onun tətbiq ediləcəyi ölkə üçün deyil, hər kəs üçün dəhşətli olacağını" təkrarlayıb. Əslində Ryabkovun sözlərini dövlət katibinin sözlərinə şərh, Rusiyanın onlara cavabı kimi qiymətləndirmək olar. Ukrayna prezidenti Vladimir Zelenski də CBS telekanalına müsahibəsində Putinin sözlərini də blef hesab etmədiyini deyərkən qeyd edib ki, onun fikrincə, "dünya bu təhlükəni saxlayır. Biz ona təzyiq etməli və bunun qarşısını almalıyıq".

Soyuq müharibə illərində dəfələrlə baş vermiş vəziyyət yenidən təkrarlanır. Qarşıdurmanın əsas iştirakçıları bir-birinin qurduqları "qırmızı xətti" keçməsini gözləyir, eyni zamanda bunun baş verməyəcəyinə ümid edir və ən pis ssenariyə hazırlaşırlar. Prezidentliyi az qala nüvə münaqişəsinə səbəb olan Kuba Raket Böhranı olan Con Kennedinin sevimli tarixçisi Barbara Takman bir dəfə belə bir vəziyyətin təhlükəsi barədə xəbərdarlıq etmişdi ki, onun fikrincə, bu vəziyyət müharibəyə səbəb ola bilər. Bununla belə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun bir fikrini yada salmağın vaxtıdır. Bu ilin mart ayında Ukraynadakı münaqişə səbəbindən nüvə müharibəsi ehtimalına inanıb-inanmadığı sualına cavab olaraq nazir belə cavab verib: "Mən buna inanmaq istəmirəm və inanmıram".

Prezident Vladimir Putinin elan etdiyi qismən səfərbərlik Rusiyaya birləşmək lehinə səs verən və nüvə çətiri altına düşəcəyi gözlənilən ərazilər də daxil olmaqla 1000 km-lik "təmas xətti" boyunca ərazilərə nəzarəti təmin etmək zərurətindən irəli gəlir. Səfərbər olunan 300 min nəfər Rusiyanın 25 milyonluq ümumi səfərbərlik potensialının bir hissəsidir. Beləliklə, müharibə özünün yeni mərhələsinə qədəm qoydu. Rusiya Federasiyasının ərazisinə çevriləcək ərazilərə nəzarəti təmin etdi. Görünür, bu addım, Kremlin fikrincə, hərbi əməliyyatların kəskin mərhələsinin başa çatmasına gətirib çıxaracaq.

Təsadüfi deyil ki, Putin müasir nüvə silahlarının mövcudluğunu ölkənin təhlükəsizliyinin doktrinal qarantı kimi qeyd edib, onlardan istifadə edilməsi blef deyil. Putin öz müraciətində yenidən Rusiya ilə Qərb arasındakı qarşıdurmanın ekzistensial xarakterini açıqlayıb: "Ukrayna sadəcə bir ərazi, dayaq nöqtəsi və top yemi tədarükçüsüdür. Qərbin Rusiyaya qarşı siyasətində Rusiyanın məhvi prioritetdir. Qərbin məqsədi ölkəmizi zəifləetmək, parçalamaq və son nəticədə məhv etməkdir. Onlar artıq birbaşa deyirlər ki, 1991-ci ildə Sovet İttifaqını parçalaya bildilər və indi Rusiyanın özünün də vaxtı çatıb ki, o, bir-birinə ölümcül düşmənçilik edən kiçik dövlətlərə parçalanmalıdır".

Rusiya prezidentinin fikrincə, Qərbin planlarının mərkəzində, rusofobiya dayanır: "Yəni ruslara və onların dövlətinə qarşı etnik və milli dözümsüzlük. Banderanın varisləri və nasist cəzalandırıcıları insanları öldürür, işgəncə verir, zindana atır, dinc əhaliyə divan tutur, əzab verir".

Bəli bütün dünya üçün nüvə təhlükəsinin spekulyativ xarakter daşımadığını deməyin zamanıdır. Şərqdə belə bir deyim var, istər pələng olsun, istərsə də timsah, yaxud əjdaha olsun, onun kürəyinə minməkdən həzz almaq əyləncəli və həm də çətin ola bilər, lakin heç kim sonu görünməyən bir "gəzinti"dən həzz ala bilməz. Sual da budur: pələngi öldürmədən onun kürəyinə necə minmək olar?

Dünyada "pələnglər", "timsahlar" artıb. Bu heyvanların caynağında və dişinin dibində bütün insanları məhv edə biləcək gücə malik zəhər var. Onları məhv etmək çətindir, amma qeyri-mümkün deyil. Öldürmək fəzldir, lazımdır, çünki büsbütün təhlükədir. Əks təqdirdə özümüz məhv ola bilərik.

**V.VƏLİYEV**



**Mətanət MƏMMƏDOVA**

# 1990-lar, 2020-lər...

**1990-lar da bizə müharibə acısını yaşatdı, 2020-lər də. 1990-larda Birinci Vətən Müharibəsini, 2020-lərdə isə İkinci Vətən Müharibəsini yaşadıq. Ancaq 30 illik zaman kəsiyinin o başı ilə bu başı arasında o qədər böyük fərqin olduğunu da müşahidə etdik.**

İki il öncə İkinci Vətən Müharibəsinin başlandığı bu günlərdə yenə də o illərlə bu illər qarşı-qarşıya dayanaraq öz müqayisəsini qoyur ortaya. Torpaqlarımızın işğalını, azad edilməsini, ozamankı ordumuzu, hazırkı ordumuzu. O dövrdəki ölkəmizi, indiki ölkəmizi. O zamankı dövlət rəhbərini, indiki dövlət rəhbərini. O zamankı itkilərimizi- şəhidlərimizi, itkinlərimizi, bu dəfəki itkilərimizi, həm o, həm də indiki qazilərimizi.

Tarixin bir qərinəyə yaxın zaman kəsiyinin o başında və bu başında dayanan hadisələrin oxşar və fərqli cəhətləri göz önündədir, bəli. Bu gün Anım günündə minlərlə şəhidimizin ruhunu anarkən, onların Vətən yolunda canlarını fəda etmələrini, ölümün gözünə dik baxmalarını xatırlayarkən elə tarixin o başındakı hadisələrlə bu başındakı hadisələrin fərqi də gözlər önündə canlanır.

Biz Vətən torpaqları üçün həm 1990-larda, həm də 2020-lərdə minlərlə şəhid vermişik. Namusumuzun, şərəfimizin mühafizəsi üçün canımızdan keçmişik. Lakin 1990-larda şəhid olanlarımızın arxasında dayanan olmamışdı. Onlar özlərinin oradan-buradan tapdıqları silahlarla, köhnə texnika ilə, özlərinin gücünə düşmənin qarşısına çıxmışdılar. Çünki arxalarında dövlət yox idi. Onlara kömək edəcək, yardım göstərəcək dövlət yox idi. Hələ üstəlik bu üzdəniraqlar torpaqları satıb igidlərimizi bilə-bilə ölümə göndərmişdilər. Onlar cəbhədə döyüşürdülər. Son damla qanlarınadək döyüşməyi qarşılarına məqsəd qoymuşdular. Lakin torpaqlarımız bir-birinin ardınca işğal olunurdu. Çünki torpaqlarımızın xəritəsi, düşmənin haradan girib, haradan qəsb etməsi planı onlara verilmişdi. Bu səbəbdən də 15 mindən artıq həmvətənimizi itirdik. Sonda nə oldu? Əllərimiz boş qaldı-torpaqlarımız getdi. Könlümüz zimistana çevrildi-balalarımız getdi.

Zaman da, tarix də sübut etdi ki, sərkərdə sərkərdə olanda ordu bada getməz. Heç bir ordu, birləşmə rəhbərsiz nə isə etməyə qadir ola bilməz. Bunu 2020-ci ilin 44 günlük müharibəsində açıq şəkildə gördük. Gördük ki, dövlətimizin başçısının praqmatik baxışı, ölkə iqtisadiyyatının son illərdə inkişafı, ordumuzun təchizatının yaxşılaşdırılması və yüksək sərkərdəlik, rəhbərlik, bir də torpağa sevgi, can yanğısı torpaqlarımızın azad olunmasında xüsusi əhəmiyyət kəsb etdi. Gördük ki, torpağın azad olunmasında ən başlıca amil torpağa olan sevgidir. Bu sevgi olmayan yerdə torpaq azad oluna bilməz. Baxmayaraq ki, bizim müharibələrimizin hər ikisi eyni düşmənlə, eyni məqsədlə aparılırdı, gördük ki, ordunun sərkərdəsi olanda, ona kömək göstəriləndə, arxasında duranda az itki ilə məqsədə çatmaq olarmış. Bəzən torpaqlarımızı satanların meydanda yenidən səslərini eşidirik. Utanmazlığın, həyasızlığın şahidi oluruq. Övladlarımızın qatillərinin, torpaqlarımızın günahkarlarının çıxmağa haqqı olmayan səslərini eşitmək nə qədər ürəkbulandırıcıdır. Anlamırlar, o səsləri eşitmək istəmədiyimizi. Anlasalar, səslərini əsla çıxarmazlar. Amma...

Biz 2020-lərdə 1990-larda buraxılan bağışlanmaz səhvləri düzəltməyə çalışdıq. Torpağı namusu bilməyib satanlar səbəbindən namus və şərəfimizi təmizlədik. Biz yenə də analarımızın qucağına şəhid verdik. Çünki şəhidsiz müharibə olmur. Onlara göz yaşı verdi bu müharibə. Lakin görün nəyə qadir olduq? Torpağımızı yağıdan geri almağa qadir olduq. Dünyaya heyrət etdiyi birliyimizi, həmrəyliyimizi göstərdik. Dünyaya 30 ilin qisasının alınmasını nümayiş etdirdik.

Şəhidlərimiz bizim başımızın tacıdır. Biz onların gənc ömürlərindən keçmələri naminə torpaqlarımızın yenidən sahiblərinə çevrildik. Bunu nə zaman, nə də tarix unudar. Bu Anım günündə torpaqlarımız uğrunda həm 1990-larda, həm də 2020-lərdə canlarından keçən şəhidlərimizi böyük hüznlə, minnətdarlıq hissi ilə anır, onlarla qürur duyduğumuzu bir daha söyləyirik. Nə qədər ki, bu xalq, bu millət var, onlar bizim qəlbimizdə ucalan ən dəyərli abidə olaraq hər an ziyarət olunacaq, anılacaqlar. Çünki onlar torpaq, Vətən, namus və şərəf uğrunda canlarını fəda edib bizim şərəfimizi bizə qaytaranlardır.

ŞƏRH+AKTUAL

# Levon Ter-Petrosyan hakimiyyətə və müxalifətə son xəbərdarlığını etdi

## Eks-prezident: "Bizi ağır qərarlar gözləyir, razılaşma həm Azərbaycanla, həm də Türkiyə ilə imzalanmalıdır"



Ermənistan rəhbərliyinin son çırpınışları da nəticəsiz qalmaqdadır. Əsində, baş nazir Nikol Paşinyanın Qərbdən pənah umması gözləntiləri də özünü doğrultmur. Əvvəlcə ABŞ Konqresinin Nümayəndələr palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri, ardınca isə Paşinyanın Fransaya gedərək prezident Emmanuel Makronla görüş keçirməsi, eləcə də onun hökumət üzvlərinin də xarici səfərlər kontekstlərindəki ciddi-cəhdləri sadəcə boş görüntü xarakteri daşıyır. Yəni fakt budur ki, hətta Qərb siyasi dairələrinin rəhbərlikləri tərəfindən Azərbaycan əleyhinə səslənən bəyanatlar belə boş bəyanatlar qismində qalmaqda davam edir. Məhz bu xüsusda mühüm xatırlatmanı da qeyd edə bilərik. Prezident İlham Əliyev Laçın şəhərinə etdiyi səfəri zamanı xalqa müraciətində də vurğuladı ki, heç bir təsir cəhdləri və zənglər Azərbaycanı tutuğu mövqeyindən çəkindirə bilməz.

Bu arada, Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan da Nikol Paşinyanın "sudan quru çıxmaq" cəhdlərinin əbəs olduğunu bəyan edib. Xatırladaq ki, bir neçə gün əvvəl erməni katolikosu Qareginlə görüş keçirən Ermənistanın keçmiş dövlət başçıları Robert Koçaryan, Serj Saqrsyan ümumi vəziyyətin müzakirəsini aparıblar və həmin müzakirədə Koçaryan-Sarqsyan cütlüyü revanşizm siyasətinə üstünlük verdiklərini desələr də, onlardan fərqli olaraq Ter-Petrosyan tamamilə əks mövqedən çıxış edir, mövcud hakimiyyətin kapitulyasiya aktı ilə barışmaqdan başqa çarənin qalmadığını bildirir. O, öz fikirlərini belə əsaslandırıb ki, əks halda Ermənistan olan-qalan ərazilərini də itirməli olacaq və dövlətçilik məsələsi böyük sual altında qalacaq.

### "Rusiyanın, Türkiyənin nə təklif etdiyini, Fransanın nə məsləhət verdiyini yalnız Nikol bilir"



Levon Ter-Petrosyana görə, Ermənistan qarşısında nəyin qoyulmasından yalnız bir nəfərin xəbəri var və o da Nikol Paşinyandır: "Bizim heç birimiz real informasiyaya malik deyil. Rusiyanın, Türkiyənin nə təklif etdiyini, Fransanın nə məsləhət verdiyini yalnız Nikol bilir".

Ermənistanın eks-prezidenti müxalifətin də revanşist hisslərinə münasibətini açıqlayaraq bəyan edib ki, müxalifətin böyük əksəriyyəti Paşinyandan qurtulmaqla ağır qərarlara gəlməkdən xilas olunacağını hesab edir. Lakin bu da sadəlöhvlükdür. "Kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq o daha ağır qərarlarla qarşı-qarşıya qala bilər", deyə Ter-Petrosyan bildirib: "Bütün qərarlar bizim üçün pisdir. Mənim məqsədim budur ki, ən az ağrılı qərarı seçməyə imkanımız olsun".

### "Əgər daha yarım il də bu cür davam etsə, artıq Ermənistan olmayacaq"

Levon Ter-Petrosyan qeyd edib ki, müxalifət və iqtidar hər şeyi kənara qoymaqla bir masa arxasında əyləşib, məsələni bir yerdə həll etməlidir ki, hansı variant Ermənistan üçün daha az ağrılı olacaq: "Şəxsən mən buna hazıram və məsuliyyət daşımaqdan da qorxmuram".

Ermənistanın sabiq prezidenti hesab edir ki, ölkəsi Azərbaycanla və Türkiyə ilə sülh sazişini imzalamalıdır. O, katolikosla, Robert Koçaryanla, Serj Saqrsyanla və Nikol Paşinyanla görüş keçirməyi təklif edib və buna hazır olduğunu bildirib: "Hələ ki, bu gün hər-hansı münbit qərarı vermək mümkündür, yox əgər daxili qarşıdurmaları davam edəcəyiksə, onda bizi daha ağır qərarlara gəlmək gözləyir. Əgər daha yarım il də bu cür davam etsə artıq Ermənistan olmayacaq".





### "ABŞ bizim düşdüyümüz situasiyanı gərginləşdirməməlidir"

Ter-Petrosyan hesab edir ki, hazırda bir araya gəlməyin tam zamanıdır: "Bir daha deyirəm, bizi ağır, ağrılı qərarlar verməkgözləyir və biz həm Azərbaycanla, həm də Türkiyə ilə lazım olanları imzalamalıyıq. Bu, heç kimin xoşuna gəlməyəcək, ancaq alternativ olmayanda başqa məqam ələ düşmür".

Keçmiş dövlət başçısı bildirib ki, məhz Rusiya-Ukrayna müharibəsi Ermənistan üçün təhlükəli situasiya yaradıb. O, eyni zamanda, ABŞ-ın da bostanına daş ataraq bildirib ki, vəziyyətin gərginləşməsində Vaşinqton siyasi dairələrinin də rolu var: "ABŞ bizim düşdüyümüz situasiyanı gərginləşdirməməlidir və bizim üçün daha münbit, qəbuledilən qərarların verilməsinə dəstək göstərməlidir. Rusiyanın bu məsələdəki imkanları zəifləyib və bu da Ukraynadakı müharibəyə görədir".

### "Ermənistanın Qarabağda səs hüququ qalmayıb və orada heç bir rol oynamır"

Levon Ter-Petrosyan Ermənistanın bütün siyasi-ictimai və s. dairələrinə xəbərdarlıq siqnalını verib və qeyd edib ki, vəziyyət dəfələrlə ağır vəziyyətə doğru inkişaf edir: "Mən hamıya - hökumətə, müxalifətə, ziyalılara, ictimai xadimlərə deyirəm ki, qeyri-ciddi olmağın deyil, ciddi olmağın zamanı çatıb. Qarabağ məsələsinin açarı Ukraynadakı müharibəyə qədər Rusiyanın əlində idi. İndi Rusiyanın o qədər problemləri var ki, artıq həmin açar da itiriləcək".

Beləliklə, bütöv bir ölkənin itirilməsi təhlükəsinin mövcud olduğunu deyən Levon Ter-Petrosyan nə qədər gec deyilsə, Ermənistan rəhbərliyinin və müxalifətinin bir araya gələrək mövcud vəziyyətlə barışmalı olduğunu deyib, yalnız sülh sazişinin imzalanması ilə ölkənin xilas ola biləcəyini vurğulayıb və onu da bəyan edib ki, artıq Qarabağ məsələsi həll edilib: "Artıq Ermənistanın Qarabağda səs hüququ qalmayıb və orada heç bir rol oynamır".

***Rövşən RƏSULOV***

# Vətən müharibəsi və şanlı Qələbə

Ermənilərin xalqımıza qarşı düşmənçilik siyasəti 200 ildən artıq bir zaman kəsiyində – çar Rusiyası zamanı əzəli Azərbaycan torpağı Qarabağa köçürüldükləri vaxtdan başlayaraq, bu günə qədər davam edir. Məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlamış, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmışlar. Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər. 1918-1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə yadda qalmışdır. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuş, onlara işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edilmişdir.



*Mehdi MEHDİYEV, "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədri*

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir.1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə daha 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. Onu da qeyd etməlyik ki, ermənilərin tarixi ərazilərimizdə həyata keçirdikləri soyqırımı siyasətinə ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilmişdir. Ulu Öndərin 1998-ci ildə imzaladığı Fərman ilə 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir. Xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20%-ni işğal etmişlər. İşğal zamanı yaşayış məntəqələri dağıdılmış, dinc əhali amansızcasına qətlə yetirilmişdir. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk Qrupu fəaliyyəti ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilmiş və beynəlxalq qətnamələr kağız üzərində qalmışdır. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Digər bir mötəbər beynəlxalq təşkilat, BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır. Bütün bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə təxribatlar törətmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açmış, onların rahat yaşamasına imkan verməmişdir.Ermənistanın Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Xalqımızın and yerinə çevrilən doğma torpaqlarımızın 30 il ərzində düşmən əsarətində qalması illərdir ki, qəlbimizdə dərin izlər yaratmışdı. Ölkəmizin müxtəlif sahələrdə qazandığı uğurları, əldə etdiyi inkişaf səviyyəsi ilə dünya miqyasında layiqli yerini tutub irəliləməsinə sevinsək də, böyükdən-kiçiyə hər birimizin ürəyində böyük bir nisgil, həsrət yanğısı var idi. Lakin dövlət başçımızın hər dəfə mötəbər tədbirlərdə, eləcə də şəhid ailələri və qazilərlə görüşləri zamanı etdiyi çıxışlarında qətiyyətlə qəhrəman oğullarımızın qanının yerdə qalmayacağını, torpaqlarımızın işğaldan azad ediləcəyini vurğulaması inam hissimizi də gücləndirirdi. Bütün bunların məntiqi nəticəsi olaraq öz liderinin ətrafında sıx birləşən xalqımız bu həsrətə ötən ilin sentyabrın 27-də son qoydu. Bu əlamətdar gün xalqımızın çoxdan gözlədiyi Zəfər yolunun başlangıcı kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi Ordumuzun qüdrətini, döyüş ruhunu, eləcə də xalqımızın sarsılmaz birliyini, doğma yurdu, torpağı uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. İşğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olunmuşdur. Əminliklə deyə bilərik ki, Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabahımız üçün möhkəm bünövrədir. Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə xalqımızın əzmini, birliyini daha da artırdı. Artıq bayrağımızın şövqlə dalğalandığı ölkəmizin nadir incisi, mədəniyyət beşiyi olan Şuşada bu gün silsilə tədbirlər keçirilir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Bu gün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları müqəddəs Vətənimiz uğrunda canından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır. Küçə, prospekt və meydanlarda, evlərin balkonlarında üçrəngli bayrağımız dalğalanır. Məscidlərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunur. İnsanlar Anım Gününü həm də zəfər və iftixar günü kimi qeyd edirlər. Bu günlər Şəhidlər Xiyabanına gələn böyükdən-kiçiyə hər kəs ərazi bütövlüyünü təmin etmiş ölkənin vətəndaşı kimi böyük qürur hissi keçirərək, şəhidlərimizin xatirəsini ehtiramla yad edir. Allah şəhidlərimizə rəhmət eləsin! Yaşasın Azərbaycan Xalqı!

# 27 sentyabr 2020-ci il - Qürur və ehtiramla anılan gün!

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi Azərbaycan tarixinə bizim şanlı zəfərimiz kimi yazıldı. Müzəffər Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 atsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan Böyük Qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi.




Lakin müharibələr itkisiz də olmur. Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu şəhid oldu, yüz nəfərdən artıq hərbi qulluqçumuz itkin düşmüş, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirdi. Bununla yanaşı ədliyyə və məhkəmə orqanlarının 100-dək əməkdaşı hərbi əməliyyatlarda, o cümlədən könüllü kimi iştirak etmişlər. Xidməti fəaliyyəti dövründə zəhmətsevərliyi, davranışı ilə kollektivin rəğbətini qazanan Ruhin Xəlilov Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanıb. Torpaqlarımızın azad olunması uğrunda aparılan müharibədə fədakarcasına iştirak edən Ruhin Xəlilov Füzuli Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak edib və bir çox uğurlu tapşırıqların icrasında şücaəti ilə seçilib. Ruhin Xəlilovun son döyüşü isə Qubadlı rayonu ətrafında olub. Mərdlik və şücaət göstərərək qəhrəmancasına vuruşan Ruhin oktyabrın 21-də şəhidlik zirvəsinə ucalıb. Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Həmçinin ədliyyə orqanlarında xidməti vəzifələrini layiqincə və vicdanla yerinə yetirdiyinə, habelə əsl vətəndaşlıq nümunəsi və fədakarlıq göstərdiyinə görə Ruhin Xəlilova ölümündən sonra "Fəxri ədliyyə işçisi" adı verilib.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsi, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalq müraciətində bu barədə deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir

Silahlı qüvvələrin modernləşdirilməsi ölkə başçısının dövlət siyasətinin strateji istiqamətlərindən biridir. Son illərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm və tarixi işlər görülüb. Ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar da ordumuzun potensialının gücləndirilməsinə xidmət edən amillərdəndir. Müdafiə Sənayesi Nazirliyinin istehsal sahələrində 400-dən çox müdafiə təyinatlı məhsulların istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindəndir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Sonda isə bir daha xatırlatmaq istərdim ki, Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələr haqqında bundan sonra kitablar yazılacaq, filmlər çəkiləcək. Bu gün Qarabağa həyat qayıdır, dağıdılmış evlər məscidlər yenidən tikilir, kənd və qəsəbələrin eləcə də şəhərlərin yeni proyektləri hazırlanır. Bu gün Azərbaycan vətəndaşı xoşbəxtdir ki, onun torpaqları düşmən tapdağından azad edilib. Allah şəhidlərimizə rəhmət eləsin !

***Nərmin Qoşqarova,***
***Ədliyyə Nazirliyi Qanunvericilik Baş İdarəsi Kitabxana müdiri, kiçik ədliyyə müşaviri***

ANALİZ

# Media Reyestri media orqanlarına və jurnalistlərə nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.

**Xəbər verdiyimiz kimi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.**

Fərmanda deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

1. "Media Reyestrinin aparılması Qaydaları" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Media Reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

4. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi:





4.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsünlər;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

"Media Reyestrinin aparılması Qaydaları"nan əsas məqamları nəzərinizə çatdırmaq istəyirik.

## Media Reyestrinin fəaliyyət prinsipləri

Reyestr aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

- istifadə rahatlığı,
- fasiləsizlik
- operativlik
- şəffaflıq

Reyestrin aparılması qaydaları

Reyestrin informasiya təminatı Reyestrə daxil edilmək üçün müraciət edən şəxslər, o cümlədən jurnalistlər və Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən məlumatların təqdim edilməsi, həmçinin EHİS vasitəsilə sorğu edilən məlumatların inteqrasiya olunması yolu ilə həyata keçirilir.

Reyestrə daxil edilmək üçün müraciət edən şəxslər, o cümlədən jurnalistlər tərəfindən məlumatlar təqdim edildiyi tarixdən 5 (beş) iş günü müddətində Reyestrin operatoru çatışmazlıqların olub-olmamasını yoxlayır və çatışmazlıqlar aşkar edilmədikdə Reyestrə daxil edir. Reyestrə daxil edilmiş media subyektlərinə müddətsiz şəhadətnamə, jurnalistlərə isə 3 il müddətinə vəsiqə verilir.

Təqdim edilmiş məlumatlarda imtinaya səbəb olmayan çatışmazlıqlar müəyyən edildikdə, müraciət edən şəxslərə, o cümlədən jurnalistlərə bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulmuş müddətdən- 5 gündən gec olmayaraq, çatışmazlıqlar qeyd edilməklə onların aradan qaldırılması barədə elektron qaydada bildiriş göndərilir.

Çatışmazlıqlar bu Qaydaların 6.3-cü bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, Agentlik tərəfindən müraciət baxılmamış saxlanılır. Bu hal həmin şəxslərin yenidən müraciət etməsinə mane olmur.

Reyestrə daxil edilmək üçün müraciətdən imtina qaydaları

Reyestrə daxil edilmək üçün müraciət etmiş şəxslərin Reyestrə daxil edilməsindən aşağıdakı hallarda imtina olunur:

-Qanunun 26.1 - 26.5-ci və 26.8-ci maddələrində nəzərdə tutulmuş tələblərə (Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) uyğun olmadıqda;

- fəaliyyəti davamlı olmadıqda (müraciət tarixinə qədər media sahəsində fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

- fəaliyyəti Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmadıqda;

- hüquqi şəxs olduqda hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alınmış olmadıqda;

- fiziki şəxs olduqda fərdi sahibkar kimi vergi uçotuna alınmış olmadıqda;

- loqotipi (emblemi) Reyestrdə olan digər media subyektlərinin redaksiyalarının loqotipləri (emblemləri) ilə eyni və ya oxşar olduqda.

Reyestrə daxil edilmək üçün müraciət etmiş jurnalistlərin Reyestrə daxil edilməsindən aşağıdakı hallarda imtina olunur:

- ali təhsili olmadıqda;

- fəaliyyət qabiliyyətli olmadıqda;

- ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edildikdə;

- məhkumluğu ödənilmədikdə və ya götürülmədikdə;

- media subyekti ilə əmək müqaviləsi olmadıqda (fərdi olaraq müəllif hüquqları əsasında işləyən jurnalistlərin azı bir media subyekti ilə mülki hüquqi müqaviləsi olmalıdır);

- Reyestrə daxil edilməmiş media subyektində işlədikdə;

- işlədiyi media subyekti davamlı fəaliyyət göstərmədikdə (müraciət tarixinə qədər fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

- fəaliyyəti Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmadıqda;

- işlədiyi çap mediası subyektinin fəaliyyətində yaranmış fasilə Qanunun 59.7-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq olduqda;

- jurnalistika sahəsi üzrə iş stajı 3 (üç) ildən az olduqda və ya elmi və pedaqoji təhsil müəssisələrində jurnalistika sahəsində 3 (üç) ildən az fəaliyyət göstərdikdə;

- jurnalist kimi fəaliyyət göstərdiyi müddətdə peşə etikası (etik davranış) qaydalarına riayət etmədikdə;

- fərdi sahibkar kimi vergi uçotuna alınmadan fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işlədikdə.

## Media Reyestri nəyə səbəb olacaq?

Media Reyestri media sahəsində nizam yaratmaq, media subyektlərinin və jurnalistlərinin fəaliyyətinin düzgün təşkili və onlara mümkün imkanların yaradılmasını təmin etmək üçün yaradılır.

Jurnalistlərin Media Reyestrinə daxil edilməsi könüllülük prinsipi əsasında həyata keçiriləcək. Media Reyestrinə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqəsinin təqdim olunması onların daha rahat fəaliyyətinə imkan yaradacaq, media subyektləri və jurnalistlərin hüquqlarının daha yüksək səviyyədə müdafiəsini təmin edəcək.

Reyestrə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər. Media Reyestri jurnalistlərin akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsini təmin edəcək. Lakin Reyestrə daxil olmayan media subyektlərinin və jurnalistlərin fəaliyyətinə heç bir maneədən söhbət gedə bilməz.

Media sahəsində aparılan dəyişikliklərdən sonra keyfiyyətli xəbər istehsalının təmin edilməsi asanlaşacaq. Bundan başqa, müəlliflik hüquqlarının qorunması da mümkün olacaq. Hazırda bu sahədə çoxlu problemlər var və bəzi hallarda bu məsələlər məhkəmə səviyyəsinədək gedib çıxır.

İndi ortalıqda 50 mindən artıq saxta jurnalist vəsiqəsi ilə dolaşan var ki, bu da medianı gözdən salmaqla yanaşı, cəmiyyətə də problem yaradır, reketçiliyə, dezinformasiya yayılmasına şərait yaradır. Ona görə də, əsil jurnalistlərin ümumi bir reyestri olması məqsədəuyğun hesab edilir.

Lakin Agentlik tərəfindən verilən jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda təsbit olunan "jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər. Reyestrin məqsədi media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinə və onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin edilməsidir.

İndi ortalıqda 50 mindən artıq saxta jurnalist vəsiqəsi ilə dolaşan var ki, bu da medianı gözdən salmaqla yanaşı, cəmiyyətə də problem yaradır, reketçiliyə, dezinformasiya yayılmasına şərait yaradır. Ona görə də, əsil jurnalistlərin ümumi bir reyestri olması məqsədəuyğun hesab edilir. Bir çox ölkələrdə bu sistem çoxdan fəaliyyət göstərir həm də effektli şəkildə. Reyestr və vahid vəsiqə əsil jurnalistlərə azad və peşəkar işləmək üçün böyük imkanlar açır, onlara bəzi imtiyazlar verir. Bu səbəbdən belə bir reyestrin mövcudluğu mediamızın inkişafına təkan verə bilər.

*Elçin Bayramlı*

### BİLİRSİNİZMİ?

Çində ingiliscə danışanların sayı Amerikadakılardan daha çoxdur.

***

Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.

***

İnsanların omba sümüyü betondan daha möhkəmdir.

***

600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.

***

Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.

# "Messi həmişə meydanda olacaq"



Argentina millisinin baş məşqçisi Lionel Skaloni PSJ-nin və yığmanın futbolçusu Lionel Messi haqda fikirlərini bölüşüb. Qol.az "TyC Sports"a istinadən xəbər verir ki, o, deyib: "Millinin baş məşqçisi olduğum müddətdə Messi həmişə meydanda olacaq. Pis bir şey baş verməsə, Lionel oynayacaq. Onun xüsusi bacarığı var. Burada heç bir mübahisə ola bilməz.

Mütəxəssis Messinin PSJ-də xoşbəxt olduğunu da söyləyib: "Lionel xoşbəxtdir, yaxşı oynayır və məncə onu başa düşən komandadadır. Düşünürəm ki, Messi PSJ-də irəliyə bir addım atdı. Onun indiki durumundan razıyıq".

Qeyd edək ki, Messi bu mövsüm PSJ-nin heyətində bütün turnirlərdə 11 matçda 6 qol vurub və 8 qolun ötürməsini verib. Onun klubla müqaviləsi 2023-cü ilin yayına qədərdir.

# Əgər ər və arvadın övladı yoxdursa, miras kimə qalır?

**Vəkil izah etdi**



"Azərbaycan Respublikası Mülki Məcəlləsində vərəsəlik anlayışı təsbit olunmuşdur. Belə ki, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçməsi proseduru vərəsəlik adlanır. Başqa sözlə vərəsəlik (və ya "irs") - kiminsə ölümündən sonra onun qalan mülkiyyətinə malik olma prosesi. Vərəsəliklə alınan mülkiyyət "irsi mülkiyyət" adlanır".

Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır: "Mülki Məcəllənin 1159-cu maddəsində vərəsələrin növbəliliyinə dair müddəalar öz əksini tapmışdır. Qanun üzrə vərəsəlik zamanı aşağıdakılar bərabər pay hüquqlu vərəsələr sayılırlar:

Birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər).

İkinci növbədə - ölənin bacıları və qardaşları.

Üçüncü növbədə - həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası.

Dördüncü növbədə - xalalar və bibilər, dayılar və əmilər.

Beşinci növbədə - xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları".

Vəkil sözlərinə belə davam edib: "Qanun üzrə vərəsəlik zamanı növbəlik bu cür tənzimlənir ki, əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir.

Əgər ər arvadın övladı yoxdursa və əmlakları ilə bağlı ölümlərindən sonrası üçün vəsiyyətnamə qoymamışlarsa, qanun üzrə vərəsəlik növbəliliyinə əsasən miras əmlak valideynlərinə ( ata-ana) keçir. Əgər onlarda həyatda deyilsə bu zaman digər növbələrin ardıcıllıq üzrə vərəsəlik hüququ yaranır.



Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə, vərəsələri olmayan əmlak dövlətə keçir; əgər miras qoyan şəxs ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin təminatında olmuşdursa, onların mülkiyyətinə keçir".

*Ayşən Vəli*

## Röya şəhidin sevgilisinə yazdığı məktuba mahnı oxudu



Xalq artisti Röya Ayxanın şəhid Pərviz Əliyevin sevgilisinə yazdığı məktubun sözlərinə ifa etdiyi mahnı təqdim olunub.

SİA xəbər verir ki, sözügedən bəstə Anım Günündə sənətçinin rəsmi musiqi platformalarında təqdim edilib.

"Yada düşürsən" adlı mahnıda Xalq artisti Nurəddin Mehdixanlı şəhidə ithafən yazılan sözləri də qiraət edib. Bildirək ki, şəhidin qardaşı Hikmət Əliyev həmin məktubu bəstəkar Fərid Kərimliyə göstərib. F. Kərimli isə məktubdakı sözlərə musiqi bəstələyib.

Qeyd edək ki, Pərviz Həsən oğlu Əliyev Birinci Qarabağ müharibəsində iştirak edib. O, Füzuli rayonundan Aşağı Veysəlli, Dilağarda, Govşadlı kəndlərindən keçib. 5 aprel 1993-cü ildə Məngələnata yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub. Layihə şəhid Pərviz Əliyevin simasında Vətən uğrunda şəhadətə ucalan oğullarımıza həsr olunur.

*Ayşən Vəli*

## Bakıda Beynəlxalq Kitab sərgisi keçiriləcək

Oktyabrın 5-dən 9-a qədər paytaxtda 8-ci Bakı Beynəlxalq Kitab Sərgisi - "Baku International Book Fair 2022" keçiriləcək. SİA xəbər verir ki, bu barədə mədəniyyət naziri Anar Kərimov bildirib. 16 ölkədən 60 xarici, 130 yerli nəşriyyat və təşkilatın təmsil olunacağı sərgi Şuşa ilinə həsr olunacaq.

Sərginin məqsədi kitab və mütaliənin təbliği və populyarlaşdırılması, Azərbaycan və xarici nəşriyyatların poliqrafiya məhsulları ilə tanışlıq, nəşriyyat sənayesinə dəstək, potensial əməkdaşlıq üçün nəşriyyatları kitab mağazaları ilə tanış etmək, Azərbaycanda kitab biznesinin inkişafı ilə bağlı təcrübə və fikir mübadiləsi aparmaqdır.

## ELAN

1996-cı il təvəllüdlü Namazova Esmiralda Namaz qızının adına 2013-cü ildə 86 saylı tam orta məktəb tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.



## "Mercedes"dən 18 min manata yaxın pul oğurlanıb

**Bakıda avtomobildən 18 min manata yaxın pul oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Belə ki, Yasamal RPİ-nin 29-cu Polis Şöbəsinə M.Xiyabani küçəsində "Mercedes" markalı bir avtomobildən 17.250 manatın oğurlanması barədə müraciət daxil olub.**

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Fərid Ağayev və Hüseyn Hümbətov müəyyən olunaraq saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**